Azerbaijan Journal of Botany, 2024, 2(2): 25-28 https://doi.org/10.30546/ajb.2024.2.029

# *CROCUS ADAMII* J.GAY (*IRIDACEAE*) NÖVÜNÜN YENİ YAYILMA ƏRAZİSİ (AZƏRBAYCAN, NAXÇIVAN MR)

N.K.Abbasov
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Naxçıvan Dövlət Universiteti, Universitet şəhərciyi, Naxçıvan şəhəri, AZ7012, Azərbaycan
E-mail: namiq-araz@mail.ru; namiqabbasov@ndu.edu.az

Məqalədə Naxçıvan Muxtar Respublikası ərazisində (2019-2022–ci il) aparılan tədqiqatlar nəticəsində *Crocus adamii* (*Iridaceae*) növünün aşkar edimiş yeni yayılma ərasisi, bioekologiyası, fitosenologiyası, faydalı xüsussiyyətləri və mühafizə tədbirləri haqqında məlumat verilir. *Crocus* L.- Zəfəran cinsinin Avropada, Aralıq dənizi ölkələrində, Ön və Mərkəzi Asiyada yayılmış 75 növündən Qafqazda 12, Azərbaycanda 6 növü vardır. Naxçıvan Muxtar Respublikası ərazisində 4 növünə rast gəlinir ki, onlardan da bir növü becərilir. Mühafizə olunması üçün xüsusi tədbir aparılmır. Antropogen təsiri azaltmaq məqsədilə yayılma yerlərində fərdi qorunmasının təşkili, yeni yayılma yerlərini axtarılması vacibdir. *Crocus adamii* növünün yayıldığı ərazilərdə populyasiyaları, çox azdır. Həmçinin rastgəlinən populyasiyalarda fərdlərin də sayı çox azdır. Bu baxımdan nadir növ kimi (VU B1ab (i,iii) Azərbayca Respublikasın yeni nəşr olunan "Qırmızı" kitabına (2023) daxil edimişdir.

**Açar sözlər:** *İridaceae*, zəfəran, flora, fitosenologiya, Zəngəzur Milli Parkı, Qırmızı kitab

## GİRİŞ

Süsənkimilər (*Iridaceae*) fəsiləsinin Yer kürəsində 66-a yaxın cinsi, 2500 növü vardır. Xüsusilə Cənubi Afrikda geniş yayılmışdır [Güner et al., 2022]. Aparılan son tədqiqatlara və ədəbiyyat məlumatlarına əsasən Naxçıvan Muxtar Respublikasında bu fəsilənin 3 cinsi və 25 növü məlumdur [Talıbov et al., 2021].

Fəsilənin ən əhəmiyyətli cinslərindən biri də *Crocus* L. - Zəfəran hesab olunur. *Crocus* L. cinsi çoxillik, kök yumruları pərdəvari və ya torvari qınlı, gövdəsiz bitkilərdir. Çiçəkləri düz duran, boruşəkilli-qıfvari 6 yarpaqcıqlı çiçəkyanlıqlıdır. Erkəkcikləri 6 ədəd olub, çiçəkyanlığının ağzına birləşibdir. Yumurtalıq üçyuvalı, uzunsov, sütuncuq 3 ağızcıqlıdır. Aşağı yarpaqları qınlıdır. Cinsin Azərbaycanda 6 növü, Naxçıvan MR-də 4 növü yayılmışdır: *Crocus speciosus* M.Bieb., *C. adamii* J.Gay, *C.sativus* L., *C. artvinensis* (J.Philippow) Grossh. Krımdan və Gürcüstandan təsvir edilmişdir [Rzazade 1952; Mikheev 2004; Talıbov et al., 2021].

## MATERİAL VƏ METODLAR

Növlərin adlarının dəqiqləşdirilməsi müasir nomenklaturaya əsasən [WFO], bitkilərin həyati formaları İ.Q.Serebyakov [1964] və C.C.Raunkierə [1934] görə təhlil edilmiş, bitki örtüyünün təhlili və fitosenoloji qiymətləndirmə ümumi qəbul edilmiş geobotaniki və fitosenoloji metodlar əsasında aparılmışdır [Yaroshenko, 1961; Ramenskiy, 1971].

## NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

*Crocus adamii* J.Gay - Adam zəfəranı. Çoxillik ot bitkisidir. Soğanağı yumru şarvari-yumurtaşəkilli, üzəri çoxsayda dərivari, qəhvəyi örtüklə örtülüdür. Aşağı hissədən halqaşəkilli ayrılmışdır. Yarpaqları 3-7 ədəd, çiçəklə bir vaxtda görünür,dar xətvari, 2 mm enində çılpaq, çiçəyə bərabərdir. Çiçəkyanlığı bükükdə qızılı-sarı, xarici tərəfdən şırımlı, erkəkcikləri sarı-narıncı rəngdə, dişicik ağızcığı narıncı, tozcuqdan uzundur [Flora of Azerbaijan, 1952; The Red book of the Republic of Azerbaijan, 2023]. Çiçəkləmə-meyvə əmələgəlmə dövrü aprel-may aylarına təsadüf edir. Soğanaq yumruları ilə çoxalır. Aşağı və orta dağ qurşağında, otlu yamaclarda, kolluqlarda rast gəlinir. Antoropogen və abiotik amillərin təsiri nəticəsində populyasiyaları azlmışdır. Mühafizə olunması üçün xüsusi tədbir aparılmır. Antropogen təsiri azaltmaq məqsədilə yayılma

yerlərində fərdi qorunmasının təşkili, yeni yayılma yerlərini axtarılması vacibdir. VU B1ab (i,iii) statuslu nadir növ kimi Azərbayacanın yeni nəşr olunan Qırmızı kitabına salınmışdır [The Red book of the Republic of Azerbaijan, 2023]. Bu növün ilk dəfə olaraq tərəfimizdən yeni yayılma ərazisi aşkar edilmişdir.Gps: N 39.36204; E 45.662374; h-1530 m; N 39.36535; E 45.662285, h-1525 m [www.plantarium.ru]. Şahbuz rayonu Külüs kəndində həyətyanı bağ sahəsində-Külüsçayın sağ sahilində.



Şəkil. *Crocus adamii* novünün yayıldığı yeni ərazi

Bitdiyi ərazidə aşağıda adları sadalan bitkilərlə kiçik qruplaşma əmələ gətirir: V*iola odorota* L., *Scilla siberica* subsp. *caucasica* (Miscz.) Mordak, *Ranunculus kochii* Ledeb., *Primula veris* subsp. *macrocalyx* (Bunge) Lüdi, *Trifolium pratense* L., *Marrubium vulgare* L., *Heracleum trachyloma* Fisch. & C.A.Mey., *Taraxacum officinale* F.H. Wigg., *Gagea lutea* (L.) Ker Gawl.

*Crosus adamii* növünün son Beynəlxalq təsnifat sisteminə görə adlandırması aşağıdakı kimidir [WFO]:

Aləm-Plantae
Şöbə-Tracheophyta
Sinif-Magnoliopsida
Sıra-Asparagales
Fəsilə-*Iridaceae*
Cins-*Crocus*
Növ- *Crocus adamii*

Halbuki bu növün populyasiyalarında fərdlərinin çox az sayda olmaqla Muxtar Respublikanın yabanı florasında rast gəlinir. Orta, yuxarı dağ zonalarında və Zəngəzur Milli Parkı ərazisində. Bu nadir növün təbii ki, bu ərazidə yayılmasına səbəb müxtəlif abiotik və biotik amillərdir. Növün bitmə yeri nəzarət altına alınmış, çəpərlənmiş və fərdlərinin sayı çoxaldıqdan sonra bir neçə nümunələrin götürülərək artırılması və genofondunun qorunması üçün *ex-citu* (Nəbatat bağında) introduksiya edilərək mühafizə edilməsi və müxtəlif istifadə imkanları (dekorativ bağçılıqda, elmi tədqiqat və s.) üçün istifafə edilməsi planlaşdırılmışdır (Şək.).

Bu növ Azərbaycandan (İsmayıllı rayonu) introduksiya olunaraq Rusiyanın bir çox bölgələrində (Pyatiqorsk, Moskva) mədəni şəraitdə becərilir [www.plantarium.ru]. Çox maraqlıdır ki, bu növün və eləcə bir çox nadir növlərin Rusiya ərazisində qorunması çox sərt tədbirlər həyata keçirilir, beləki bu növə ziyan hər bir Rusiya vətəndaşı külli miqdarda cərimə ödəməklə yanaşı, həm də cinayət məsulliyəti daşıyır (maddə.8.35 Rusiya Federasiyasının İnzibati Xətalar Məcəlləsi, Rusiya Federasiyasının beynəlxalq müqavilələri ilə qorunan heyvanların, bitkilərin və ya digər orqanizmlərin nadir və nəsli kəsilməkdə olan növlərinə zərər vurmaq. Rusiya Federasiyasının Qırmızı Kitabına daxil edilmişdir) [www. plantarium.ru]. Odur ki, milli sərvətimiz olan belə nadir növlərin qorunması hər Azərbaycan vətəndaşının borcudur.

ƏDƏBİYYAT


Abstract of the flora of the Caucasus (2006) In 3 volumes. St. Petersburg: Publishing house of St. Petersburg University, 467 p. [Конспект флоры Кавказа (2006) В 3 томах. СПб.: Изд-во С.-Петерб. ун-та, 467 с.]

Güner A. et al. (2022) Illustrated flora of Turkey. Nezahat Gökyığıt Botanical Garden. Volume 3 a. [Adil Güner ve b. (2022) Resimli Türkiye florası. Nezahat Gökyığıt Botanik bahçesi. Cilt 3 a.]

Mikheev A.D. (2004) Review of species of the genus *Crocus* (*Iridacae*) of the flora of the Caucasus. Journal of Botany, No.7, p, 1176-

1180 [Михеев А.Д.(2004) Обзор видов рода *Crocus* (*İridacae*) флоры Кавказа. Ботан. ж., № 7, с. 1176-1180]

Ramensky L.G. (1971) Selected works. Problems and methods of studying the vegetation cover. L.: Nauka, p. 129-140. [Раменский Л.Г. (1971) Избранные работы. Проблемы и методы изучения растительного покрова. Л.: Наука, с. 129-140]

Red Book of the Republic of Azerbaijan. (2023) Rare and endangered plant and fungi species. 3rd edition. Turkey: IMAK, 507 p. [Azərbaycan Respublikasının Qırmızı Kitabı. (2023) Nadir və nəsli kəsilməkdə olan bitki və göbələk növləri. 3-cü nəşr. Türkiyə: İmak, 507 s.]

Rzazade R.Ya. (1952) Crocus L. Flora of Azerbaijan. Vol. 2, p. 210-214. [Рзазаде Р.Я. (1952) *Crocus* L. Флора Азербайджана. Т. 2, с. 210-214]

Serebryakov I.G. (1964) Life forms of higher plants and their study. Field geobotany. Moscow; L.: Nauka. Vol. 3, p. 185-310. [Серебряков И. Г. (1964) Жизненные формы высших растений и их изучение. Полевая геоботаника. М.; Л.: Наука. Т. 3, с. 185-310]

Talybov T.H., Ibrahimov A.Sh., Ibrahimov A.M. (2021) Taxonomic spectrum of the flora of the Nakhchivan Autonomous Republic. Baku: Shirvanneshr, 426 p. [Talıbov T.H., İbrahimov Ə.Ş., İbrahimov Ə.M. (2021) Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri Bakı: Şirvannəşr, 426 s.]

WFO https://www.worldfloraonline.org/

www.plantarium.ru

Yaroshenko P.D. (1961) Geobotany (basic concepts, directions and methods). L.: Publishing house Academy of Sciences of the USSR, 474 p. [Ярошенко П.Д. (1961) Геоботаника (основные понятия, направления и методы). Л.: Изд-во АН СССР, 474 с.]

## Новое местонахождение вида *Crocus adamii* J.Gay (*Iridaceae*) (Азербайджан, Нахчыванская АР)

**Н.К.Аббасов**

Нахчыванский государственный университет, Министерство Науки и Образования Азербайджанской Республики, Университетский городок, город Нахчыван, AZ7012, Азербайджан

В статье представлена информация о новом ареале распространения, биоэкологии, фитоценологии, полезных свойствах и мерах охраны вида *Crocus adamii* (*Iridacea*e), обнаруженного в результате исследований, проведенных на территории Нахчыванской Автономной Республики (2019-2022 гг.). Из 75 видов рода *Crocus* L., распространенных в Европе, странах Средиземноморья, Средней и Восточной Азии, на Кавказе 12 видов, в Азербайджане 6 видов. На территории Нахчыванской Автономной Республики произрастают 4 вида данного рода, один из которых культивируется. Никаких особых мер защиты для охраны вида на данный момент не принимается. Для снижения антропогенного воздействия важно организовать индивидуальную защиту в местах распространения, то есть поиск мест распространения. Популяции в районах распространения *Crocus adamii* очень малы. Кроме того, количество особей в обнаруженных популяциях очень мало. В связи с этим как редкий вид VU B1ab (i,iii) был включен в недавно изданную «Красную книгу» Азербайджанской Республики (2023 г.).

**Ключевые слова:** *Iridaceae,* шафран, флора, фитоценология, Зангезурский национальный парк, Красная книга

**New distribution area of the species *Crocus adamii* J. Gay (*Iridaceae*) (Azerbaijan, Nakhchivan AR)**

**N.K.Abbasov**
Nakhchivan State University, Ministry of Science and Education of the Republic of Azerbaijan, University campus, Nakhchivan city, AZ7012, Azerbaijan

The article presents information about the new distribution area, bioecology, phytocenology, beneficial properties and protection measures of the *Crocus adamii* (*Iridaceae*) species, discovered as a result of research conducted in the territory of the Nakhchivan Autonomous Republic (2019-2022). Of 75 species of the genus *Crocus* L. distributed in Europe, the Mediterranean countries, Central and East Asia, 12 species occur in Caucasus, six species in Azerbaijan. Four species grow on the territory of Nakhchivan Autonomous Republic, one of which is cultivated. No special measures are taken for its protection. To reduce anthropogenic impact, it is important to organize individual protection in the areas of distribution, and search new distribution areas. Populations in the areas of distribution of *Crocus adamii* are very small. In addition, the number of individuals in the discovered populations is very small. In this regard, it has been included in the newly published "Red Book" of the Republic of Azerbaijan (2023) as a rare species (VU B1ab (i,iii)).

**Keywords:** *Iridaceae*, saffron, flora, phytocenology, Zangazur National Park, Red book